BUILDING TRUST

# MƏHSULUN MƏLUMAT VƏRƏQİ

# SikaCeram® FLX 24

(köhnə adı MTile FLX 24)

C2TE S1 sinfi, yüksək performanslı, sement tərkibli fleks yapışdırıcı

## TƏSVİR

SikaCeram® FLX 24, sement tərkibli, yüksək keyfiyyətli, su ilə qarışdırılaraq tətbiqə hazır hala gətirilən, incə təbəqə yayma üsulu ilə tətbiqə uyğun fleks yapışdırıcı materialıdır.

## İSTİFADƏ YERLƏRİ

- Daxili və xarici sahələrdə, şaquli və üfüqi tətbiqlərdə;
- Hər cür keramik plitə, hətta böyük ölçülü grès çini yapışdırılmasında
- Suya həssaslığı olmayan mərmər və təbii daş yapışdırılmasında
- Yerdən isitməli döşəmələrdə
- Yüksək keyfiyyətli yapışdırıcı tələbinnin qarşılanması üçün : Üzgüçülük hovuzlarında, sənaye və ağır trafikli döşəmələrində
- Polistren, poliüretan köpük, daş və şüşə yunu lövhələrinin nöqtəli yapışdırma tətbiqlərində
- Daxildə, köhnə keramik plitə üzərinə yeni plitələrin yapışdırılmasında
- Sika® su izolyasiya qarışımları üzərində plitə örtük yapışdırıcısı olaraq

## ÜSTÜNLÜKLƏRİ

- Asan qarışdırma və istifadə
- EN 12004 standardına uyğun olaraq C2TE S1 siniflǝndirilir
- C2- sement tərkibli, polimer ilə təkmilləşdirilmiş
- T sinifi - sürüşməzlik xassəli
- E sinifi - Uzadılmış açıq gözləmə müddəti
- S1 sinifi - Deformasiya xüsusiyyətli
- Bir çox səthlərə yüksək yapışma müqavimətli olması (Beton, suvaq, daş, kərpic, köhnə plitə və s. )

## TƏSDİQLƏR VƏ SERTİFİKATLAR

- EN 12004 standardının tələbləri: C2TE S1
- AZS 039-2000

## MATERIAL MƏLUMATI

| | |
|---|---|
| **Kimyəvi əsası** | Sement, polimer ilə təkmilləşdirilmiş qarışım |
| **Qablaşdırma** | 25 kq-lıq torba |
| **Görünüş və rəng** | Ağ toz / Boz toz |
| **Saxlama Müddəti** | İstehsal tarixindən etibarən 12 ay. |
| **Saxlama Şərtləri** | Zədələnməmiş, açılmamış, orijinal möhürlənmiş qablaşdırmada quru şəraitdə +5°C ilə +35°C arasında temperaturda saxlayın. Birbaşa günəş işığından, istilikdən və nəmdən qoruyun. |

| | | |
|---|---|---|
| **Sıxlığı** | ~ 1.5 kg/l (+20°C-də, qarışdırılmış sıxlıq) | (EN 12190) |
| **Maksimum dənəcik ölçüsü** | $D_{max}$: 0.3 mm | (EN 12192-1) |

## TEXNİKİ MƏLUMATLAR

**Dartma yapışma gücü** (EN 12004-2)

| | Dəyər | EN 12004-1, C2 sinifi tələbi |
|---|---|---|
| Standard Tətbiq | ≥ 1.0 N/mm² | ≥ 1.0 N/mm² |
| Suda saxlama sonrası | ≥ 1.0 N/mm² | ≥ 1.0 N/mm² |
| İstilik yaşlandırması sonrası | ≥ 1.0 N/mm² | ≥ 1.0 N/mm² |

**Sürüşmə müqaviməti** (EN 12004-2)

| Dəyər: | EN 12004-1, T sinifi tələbi |
|---|---|
| ≤ 0.5 mm | ≤ 0.5 mm |

## TƏTBİQ MƏLUMATI

**Qarışdırma nisbəti**

25 kq-lıq torba üçün:
- **Boz:** 6.75-7.25 litr su (su / toz nisbəti: 0.27-0.29)
- **Bəyaz:** 7.50-8.00 litr su (su / toz nisbəti: 0.30-0.32)

**Sərfiyyat**

İstifadə miqdarı, səthin nahamarlığından, səviyyəsindən, plitə ölçülərindən, tətbiq üsulundan (incə təbəqə vəya səthə və plitə arxasına çəkmə ) asılıdır : Misal olaraq, 1 m2 sahə üçün lazım olan toz kq- ilə :

| Plitə Ölçüləri | Dişli Mala ölçüsü | İstifadə Miqdarı |
|---|---|---|
| Kiçik plitələr | 6 mm | ~ 2- 3 kg/m² |
| Adi plitələr (20x20 - 40x40 cm) | 8 mm | ~ 3- 4 kg/m² |
| Böyük ölçülü plitələr, səthə və plitəyə çəkməklə | 10 mm | ~ 4- 7 kg/m² |

Bu rəqəmlər nəzəri xarakter daşıyır və rəqəmlərə, səthin məsaməliliyi, səth profili, səviyyə fərqlilikləri, itgi və ya hər hansı digər dəyişikliklərə görə əlavə material miqdarı daxil deyildir. Xüsusi səth şərtləri və tətbiq avadanlığına bağlı dəqiq istehlak miqdarını hesablamaq üçün məhsulu sınaq sahəsinə tətbiq edin. Yuxarıdakı istehlak göstəriciləri hamar sement şapı və suvaqlı səthlərdə, vitrifikasiyalı və vitrifikasiyasız plitələrin quraşdırılmasına aiddir.

| | | |
|---|---|---|
| **Təbəqə qalınlığı** | Maks. 10 mm<br>(12 mm-ə qədər qalınlıq kiçik sahənin düzəldilməsi üçün mümkündür) | |
| **Ətraf mühit temperaturu** | +5°C min. / +35°C maks. | |
| **Səthin temperaturu** | +5°C min. / +35°C maks. | |
| **İstifadə müddəti** | ~ 3 saat (+ 20°C-də) | |
| **Açıq gözləmə müddəti** | ~ 30 dəqiqə (≥ 0.5 N/mm² ) | (EN 12004-2) |

**İstismara hazır olma zamanı**

| | |
|---|---|
| Dərz dolğu tətbiqi | Min. 24 saat |
| Yüngül piyada hərəkətinə | Min. 24 saat |
| İstifadəyə tam hazırdır | Min. 7 gün |

Laboratoriya şəraitində müəyyən edilən dəyərlər: +23°C ± 2°C, N.R. 50 % ± 5 %.
Daha yüksək temperaturlar göstərilən gözləmə vaxtlarını azaldacaq, aşağı temperaturlar göstərilən gözləmə müddətini artıracaq.

**Tənzimlənmə müddəti** ~ 30 dəqiqə (+20°C-də).

## SİSTEM MƏLUMATI

| | |
|---|---|
| **Sistem strukturu** | Standard tətbiqlər zamanı xüsusi astara ehtiyac duyulmur.<br>Aşağıdakı səthlərdə astar məhlulundan istifadə tövsiyyə edilir :<br>**Səth :** Yüksək hopduruculu (Gips suvağı / Anhidrit şapı )<br>**Astar:** Sika® Primer 10 vəya Sika® Seramik Astarı<br>Tətbiq və istifadə miqdarı məlumatlarını müvafiq Texniki Məlumat Formundan əldə edin. |

## MƏHSUL MƏLUMATLARININ ƏSASLARI

- Bu məlumat vərəqində göstərilən bütün texniki məlumatlar laboratoriya sınaqlarına əsaslanır. Faktiki ölçülmüş məlumatlar nəzarətimizdən kənar vəziyyətlərə görə dəyişə bilər.

## DİQQƏT EDİLMƏLİ MƏHDUDİYYƏTLƏR

- Tövsiyyə olunandan artıq su ilə qarışdırılmamalıdır.
- Müqavimətli, hazırlıq görmüş səthə tətbiq olunmalıdır.
- Maksimum təbəqə qalınlığı aşılmamalıdır.
- Suvaqlar, min. 10mm qalınlıqda və maksimum 5% nəmlilikdə olmalıdır
- Plitələrin nəmləndirilməsinə ehtiyac yoxdur.
- Birbaşa günəş altında, güclü külək və quraq mühitdə tətbiqdən çəkinilməlidir. Tətbiq, ən az 24 saat mənfi təsirli mühit şəraitlərindən, aşırı müsbət və mənfi temperaturlardan, yağışdan, günəş şüalarından, küləkdən qorunmalıdır.
- Təbii daş tətbiqlərinə başlamadan əvvəl sınaq edilməlidir.
- Aşırı hopdurucu səthlərdə açıq gözləmə müddəti qısalacaqdır.
- Bərkiməyə başlamış qarışım, su və toz əlavə edilərək təkrar çanlandırılmamalıdır.
- Xarici məkan tətbiqləri zamanı SikaCeram® FLX 24 müştərək üsuldan (yağlama-üzdürmə) istifadə edilməlidir.
- Mozaika plitələrinin yapışdırılmasından sonra düzgün, ləkəsiz dərz dolğusunu təmin etmək üçün yapışdırıcını dərzlərdən vahid bir dərinliyə qədər çıxarmaq lazımdır. Bu, ön tərəfi kağız üzlü olan mozaika plitəyə şamildir.
- Üzgüçülük hovuzlarında mozaika yapışdırılması yalnız ön tərəfi kağız üzlü və ya ön tərəfi folqa üzlü mozaika plitələrdən istifadə edilməlidir.
- Arxa üzü reaktiv qatranı ilə örtülmüş şüşə plitələr, SikaCeram® FLX 24 ilə yalnız qatran örtük qələvi davamlı olduqda qoyula bilər.
- Ləkələnməyə və/və ya deformasiyaya məruz qalan təbii daşlar və ya süni daşlar üçün uyğun kafel yapışdırıcısından istifadə edilməlidir. Tövsiyə üçün Sika Texniki Xidmətinə müraciət edin.
- Fasad plitələrinin quraşdırılması və bərkidilməsi üçün BS 5385-1:2018 və/və ya DIN 18 515-1 "Divar üzlükləri" standartlarında göstərilən tövsiyələrə əməl edilməlidir.
- Yapışdırıcı tətbiqində (6-10mm) hərəkət dərzinin olmasına , alt təbəqədə olan hərəkət dərzlərinin üst təbəqəyə daşınmasına, üfiqi və şaquli künc birləşmələri, sütun ətrafi kimi struktur elementləri və tətbiq sahəsi perimetr boyunca dərzlərin buraxılmasına diqqət edilməlidir. Daxili məkan döşəmələrində 6-9mt aralıqlarla, xarici məkanlarda 4-5mt məsafələrdə, divarlarda 3-4.5 aralıqlarla hərəkət dərzləri buraxılmalıdır.

## ƏTRAF MÜHİT, SAĞLAMLIQ VƏ TƏHLÜKƏSİZLİK

İstifadəçi, hər hansı məhsuldan istifadə etməzdən əvvəl ən son müvafiq Təhlükəsizlik Məlumat Vərəqi (SDS) ilə tanış olmalıdır. Təhlükəsizlik Məlumat Vərəqi (SDS), fiziki, ekoloji, toksikoloji və digər təhlükəsizliklə bağlı məlumatları təqdim edir, kimyəvi məhsulların təhlükəsiz istifadəsi, saxlanması və utilizasiyası ilə bağlı məlumat və məsləhətlər verir.

## TƏTBİQ TƏLİMATLARI

### AVADANLIQ

Layihə tələbinə uyğun avadanlıqlar və alətlər seçilməlidir:
**Səth hazırlığı avadanlıqları:**
- Aşındırıcı avadanlıq
- Yonucu, hamarlayıcı avadanlıq
- Təzyiqli yuyucu avadanlıq
- Qumlama aşındırıcı avadanlıq

**Qarışdırıcı:**
- Aşağı sürətli (300-400 rpm), tək və ya cüt spiral avarlı elektrikli qarışdırıcı

**Tətbiq avadalığı**
- Uyğun ölçülü dişli mala

### SƏTHİN KEYFİYYƏTİ/ÖN HAZIRLIQ

Səthin minimum bərklilik tələbi:
- SikaLevel® çeşidi – 3 günlük
- Sement qarışımı şaplar - 28 günlük

Qeyd: Sement qarışımı şapların bərkimə müddəti, qarışım xüsusiyyəti, qalınlıq və temperaturdan təsirlənir. 28 gündən daha erkən tətbiqlər üçün Sika Texniki Xidmət bölməsinə müraciət edin. Yeni quraşdırılmış sement qarışımlarının nəmlilik tərkibi 4%-dən çox olmamalı, anhidrid və/ və ya gips tərkibli şaplarda nəmlilik 0.5%-dən çox olmamalıdır.
- Sement bağlayıcılı səthlər yetərli qurumasını tamamlamalıdır.
- Bütün səthlər, müqavimətli, plitə örtük yükünü daşıyıcı, sağlam və etibarlı tətbiqə uyğun olmalıdır.
- Səth, uyğun mexaniki üsullar ilə hazırlanmalı, hamar, sağlam, deformasiya olmayan olmalı, zəif tutunmuş təbəqədən, kir, yağ, sement qalıqları, çirkləndirici və yapışqanlıq azaldıcı örtüklərdən arındırılmış olmalıdır.
- Səth, BS 5385-ə uyğun olaraq quraşdırılmış olmalı,

suvaq altlıqları keramik plitələrin yapışdırılması üçün istehsalçısı tərəfindən təsdiqli və nəzərdə tutulan istifadə sahəsinə uyğun olmalıdır.
- Aşırı hamarlıq, yapışqanlığın artırılması üçün kobudlaşdırılmalıdır. Kiçik sahədə sınaq edilməlidir.
- Geniş və qalın naharmarlığın düzəldilməsini uyğun Sika MonoTop® və ya SikaEmaco® çeşidi ilə aparılmalı, səviyyə fərqlilikləri SikaScreed® və ya SikaLevel® ilə hamarlanmalıdır.
- Səth təmiratları plitə tətbiqindən 24 saat əvvəl SikaEmaco®, SikaRep® və ya Sika MonoTop® çeşidi məhsulları ilə aparılmalıdır.
- Çatlar düzgün təyin olunmalı Sikadur® eboksid qatran məhsulları ilə təmir edilməlidir.
- Yüksək temperatur və aşırı hopdurucu səthlər suya doymuş dərəcədə nəm olmalı lakin səthdə qalıq su və toxunduqda bulaşan nəmlilik olmamalıdır.
- Plitə örtük tətbiqindən öncə, sanitar qovşaqlar və davamlı sulu/nəmli olan sahələrin sızdırmazlığı uyğun Sika® Su izolyasiya sistəmləri ilə təmin edilməlidir.
- Taxta və ya osb lövhələrdə nəm miqdarı 10%-dən çox olmamalıdır. Taxta lövhə (V100) və ya OSB lövhəsi döşəmələrə tətbiq edildikdə ən azı 25 mm, divarlara tətbiq edildikdə isə ən azı 19 mm qalınlığında olmalıdır. DSP-lər maks. 40sm vintlər arasındakı məsafədə alt quruluşa vidalanmalıdır. Kenar birləşməsinin eni ən azı 8 mm olmalıdır. DSP-nin birləşmə dərzləri yapışdırılmalıdır. Quru saha tətbiqlərində SikaTile® P 303 ilə taxta və OSB lövhələri astarlanmalıdır. Rütubətə məruz qalacaq sahələr üçün Sika® Texniki Xidmətləri ilə əlaqə saxlayın. Astarın quruması gözlənilməlidir.

Köhnə plitə üzəri bərpa və yapışdırma tətbiqləri zamanı:
- Köhnə örtüyün sağlam tutunması yoxlanılmalı
- Zəif yapışmış plitələr sökülməli və yenidən yapışdırılmalı
- Parlaq səthli plitələr aşındırılmalı və tozdan arındırılmalı, digər növ plitələr uyğun təmizlik vasitələri ilə yuyulmalı, qalıq var isə aşındırılmalı və təkrarən yuyularaq təmizlənməlidir.

### QARIŞDIRMA

25 kq-lıq torbanı yuxarıda qeyd olunan miqdarda su ilə, elektrikli əl qarışdırıcısı və uyğun qarışdırma ucundan istifadə edərək aşağı sürətlə, təmiz qabda eynicinsli  və topaqsız olanadək qarışdırılmalıdır. Yapışdırıcı qabda  ən az 5 dəqiqə dinləndirilməli, sonra material 15 saniyə təkrar qarışdırılmalıdır - qarışım artıq istifadəyə hazırdır. SikaCeram® FLX 24  aşağı sürətli elektrikli qarışdırıcı (< 500 rpm) ilə qarışdırılmalıdır,  standard beton qarışdırıcısı (sərbəst düşmə üsullu) uyğun deyil.

### TƏTBİQ

SikaCeram® FLX 24 dişli/daraq mala vasitəsi ilə səthə çəkilərək tətbiq edilir. Plitə ölçilərinə və qalınlıq tələbinə uyğun dişli maladan istifadə olunmalıdır. 300 x 300 dən böyük vəya xüsusi tələblər ( parlatma, ağır trafik və yüklənmə və s.)  olduqda  həm səthə həmdə plitənin yapışan üzünə  SikaCeram® FLX 24 təbəqəsi çəkilməlidir.
Açıq gözləmə müddəti diqqətdə saxlanılmalı, kiçik sahələr (~1m2) olmaqla yapışdırıcı səthə çəkilməlidir. Daraqlı mala vasitəsi ilə  eyni qalınlıqda yaymalı, plitə çəkilmiş yapışdırıcı üzərinə yerləşdirilməli, daraq izlərinə perpendikulyar istiqamətdə  irəli-geri hərəkət etdirilərək tənzimlənməlidir. Yapışdırıcı qatının plitə arxasında eynicinsli qalınlıqda və tam yayıldığından əmin olunmalıdır.

### AVADANLIQ TƏMİZLİYİ

İstifadə etdikdən sonra bütün alət və avadanlıqları dərhal su ilə təmizlənməlidir. Qurumuş və sərtləşmiş material yalnız mexaniki üsullarla təmizlənir.

## HÜQUQİ QEYDLƏR

Bu məlumat vərəqi, xüsusəndə, Sika məhsullarının tətbiqi və son istifadəçi üçün tövsiyyələri, doğru anbarlama, qarışdırma, və standard ətraf mühit şəraitində Sika təlimatlarına uyğun tətbiq olunmaqla əldə edilmiş bilik və təcrübəyə əsaslananan məsləhətlərdir. Praktikada, materiallardakı, səthlərdəki və faktiki sahə şərtlərindəki fərqliliklər səbəbi ilə, bu məlumat vərəqindən, hər hansı yazılı tövsiyələrdən və ya təklif olunan hər hansı digər məsləhətdən xüsusi bir tətbiq üçün uyğunluğu ilə bağlı nə bir zəmanət, nə də hüquqi münasibətdən irəli gələn hər hansı öhdəlik götürülə bilməz. Məhsulun istifadəçisi məhsulun nəzərdə tutulan xüsusi tətbiq və məqsəd üçün uyğunluğunu test etməlidir. Sika öz məhsullarının xüsusiyyətlərini dəyişdirmək hüququnu özündə saxlayır. Üçüncü şəxslərin mülkiyyət hüquqlarına riayət edilməlidir. Bütün sifarişlər mövcud satış və çatdırılma şərtlərimizə uyğun olaraq qəbul edilir. İstifadəçilər, məhsulun yerli Məhsul Məlumat Vərəqinin ən son nüsxəsinə istinad etməlidirlər. Məhsul Məlumat Vərəqini aze.sika.com internet səhifəsindən və ya sorğu əsasında info@az.sika.com poçt adresindən təmin edə bilərlər.

**Sika Azərbaycan MMC**
Sumqayıt Kimya Sənaye Parkı
Kimyaçılar küç.1, AZ5002
Sumqayıt E119
Telefon: +99412 585 10 11
Faks: +99412 585 10 12